Kim bir baxıcının yanına gedərsə və ondan bir şey soruşarsa, qırx gün namazı qəbul edilməz

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzi xanımlarından Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilmişdir: "Kim bir baxıcının yanına gedərsə və ondan bir şey soruşarsa, qırx gün namazı qəbul edilməz".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) baxıcının yanına getməyin müsəlman üçün təhlükəli olduğunu bildirir. Baxıcı - istifadə etdikləri şeylər vasitəsilə qeybi məlumatlar verən falçı, münəccim, qum üzərində fala baxanlar və bu kimi şəxslərə verilən ümumi addır. İnsanın bu kimi şəxslərdən qeyb məsələləri haqqında sadəcə bir şey soruşmasına görə, Allah onu qırx gün qıldığı namazlarının savabından məhrum edir. Bu, onun böyük günahının cəzasıdır.

http://sunnah.global/hadeeth/az/show/5986